# Şamaxı teatrı

## Bu haqda nə bilirik?



**Şamaxı təkcə yaşının 2500-3000 il tarixə malik olması, Şirvanşahlar dövlətinin paytaxtı olması ilə, ziyalılarının təkcə Azərbaycanda deyil, bütün dünyada ad-san qazanması ilə, qalaları, sərdabələri, türbələri, günbəzləri, müqəddəs pirləri, seyidləri, şeyxləri, məscidləri ilə deyil, eyni zamanda mədəniyyət və incəsənət işçiləri ilə də bütün dünyada fəxr edə bilər.**

Şamaxı Fələki Şirvani (1108-1146), Xəqani Şirvani (1121-1199), İmaməddin Nəsimi (1369-1417), Nişat Şirvani (XIII əsr), Ağa Məsih Şirvani (XVII-XVIII), əsr Mirzə Nəsrullah Bahar Şirvani (1834-1883), Mirzə Nəsrullah (1797-1879), Məhəmməd Səfa(1857-1876), Mirzə Mahmud Zuu (1843-1910), Seyid Əzim Şirvani (1835-1888), Molla Qadir Hacı Şirvani, Mirzə Ələkbər Sabir (1862-1911), Abbas Səhhət (1874-1918), Məhəmməd Hadi (1879-1920), Minəbəyim (XIX əsr), Püstə Şikar qızı (1888-1947), Badam Müslüm qızı (1880-1962) və onlarla el şairləri, Ağaməmməd, Bilal, Abbas, Ağalar, Soltan- Murad, Məmmədağa, Şakir, Mahmud kimi sənətkar aşıqları, Kərbəlayi Ələkbər, Mirzə Məmmədhəsən, Mirzə Güllər xanım, Atamoğlan Fətiyev, Alim Qasımov, Mələkxanım Eyyubova, Ağakərim Hafiz, Zabit Nəbizadə, Nazpəri Dostəliyeva və b. onlarla xanəndələri, Əli Kərimov, Ağasəf Seyidov, İzətalı Zülfüqarov, Cənnətalı Hacıyev, Rasim Ələsgəroğlu kimi balabançıları ilə fəxr edə bilər. Bu mədəniyyət və incəsənət xadimləri nəinki Şamaxıda, eyni zamanda bütün Şərq ölkələrində tanınmış sənətkarlardır.

Şamaxı sənətkarları bu gün də seçilirlər. Belə ki, son yarışmalarda Mirkamil, Ramal və Abgülün uğurları Şamaxı mədəniyyətinin bu günündən xəbər verir. Bütün bunlar göstərir ki, Şamaxı təkcə Şirvan bölgəsinin deyil, eyni zamanda respublikamızın mədəniyyət sahəsində aparıcı mərkəzlərindən biri olmuşdur.

Şübhəsiz ki, bunun da tarixi kökləri vardır. Təsadüfi deyildir ki, dahi fransız yazıçısı A.Düma "Qafqaz səfəri" kitabında şamaxılı incəsənət işçilərinin oxuyub-oynayan artistlərinə baxdıqdan sonra təsadüfi deməmişdir ki, bəlkə də Şərqdə ilk olaraq balet Şamaxıda yaranmışdır. Olsun ki, dahi Düma öz fikirlərində yanılmamışdır.

Bu baxımdan Şamaxı mədəniyyətinin aparıcı sahəsi olan, nəinki Şamaxı mədəniyyət tarixində, eyni zamanda respublikamızın mədəniyyət tarixində, konkret olaraq teatr tarixində mühüm rol oyna-

mış Şamaxı Dövlət Dram Teatrının tarxinə və bu teatrın keçdiyi yola pis olmazdı. XIX əsrin 30- cu illərində Şamaxıda həvəskar teatr fəaliyyətə başlamışdır.

Hətta həvəskarlar 1857-ci ilin qışında bir neçə tamaşa da hazırlayıb tamaşaya qoymuşlar. Çox maraqlı faktdır ki, Azərbaycanda ilk teatr binası da 1858-ci ildə Şamaxıda tikilmişdir. Bu teatr binasının memarı 1860-65-ci illərdə Bakının abadlaşdırılması işində fəal iştirak edən Qasım bəy Hacıbababəyov olmuşdur. "Qafkaz" qəzetinin 6 iyul 1858-ci il tarixli sayında bu teatrın tamaşasından geniş söhbət də açılmışdır.

Fərəhli haldır ki, teatr binasının tikintisinə Atabəy Zeynalbəyov çox böyük kömək etmiş, ianə vermişdir. Teatrın tikinti planını, çertyojunu Qasım bəy vermişdir. 1858-ci il aprelin 17-də teatrda ilk tamaşa verildi. Teatr az bir müddət ərzində elə bir səs saldı ki, tamaşalara Bakı, Şəki, Şuşa, Gəncə və Qubadan da tamaşaçılar gəlirdi.

Şamaxı Şərqin ən böyük ticarət şəhəri olduğundan buraya gələn tacirlər, qonaqlar da teatrın tamaşalarına baxırdılar.

1850-ci ildə zəlzələdən sonra mərkəz Bakıya köçəndən sonra teatr tənəzzülə uğradı, lakin Şamaxı həvəskarları 1862-ci ildən yeni tamaşalar göstərməyə başladılar. "Novoye obozreniye" qəzeti 7 fevral 1891-ci il tarixli sayında yazır ki, Şamaxı teatrı məktəblilərin nəfinə xeyriyəçilik tamaşaları verir.

Onu da qeyd etmək lazımdır ki, şamaxılı ziyalılar, həvəskarlar, xeyriyyəçilər teatra həm mənəvi, həm də maddi yardım göstərirdi. Hətta imkanlı şəxslər öz evlərinin böyük zallarında tamaşa verməyə icazə verirdilər. Teatrın repertuarında N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", Ü.Hacıbəyovun " O olmasın, bu olsun", "Arşın mal alan" əsərləri möhkəm yer tutmuşdur. Arxiv sənədinə nəzər salsaq görərik ki, 1905- 20-ci illərdə Şamaxıda teatr tamaşaları hazırlanmasında Abbas Səhhət, aktyor Sidqi Ruhulla, A.Şərifzadə, Rüşdiyyə məktəbinin müəllimi Məmmədhəsənbəy Atamalıbəyov və Cəmo Cəbrayılbəylinin xidmətləri əvəzsiz olmuşdur.

1920-30-cu illərdə teatr bir az zəiflədi. Bəzi kəndlərdə klublar açdılar ki, həmin klublarda mədəni-kütləvi tədbirlər həyata keçirilirdi.

1930-cu ildən sonra teatr tamaşalarını tədriclə bərpa etməyə başladılar. 1930-47-ci illərdə teatra mərhum Hacı Quliyev rəhbərlik etmişdir.

Bu dövrdə S.Vurğunun "Vaqif", C.Cabbarlının "Almaz", "Sevil", "Aydın", Ə.Haqverdiyevin "Pəri Cadu", M.İbrahimovun "Həyat", S.Rəhmanın "Toy" və s. əsərlər yüksək sənətkarlıqla göstərilirdi. Tamşalar ətraf rayonlarda da nümayiş etdirilirdi.

Teatr tezliklə dünya klassiklərinin əsərlərini də oynamağa başladı.

1946-cı ildə Şamaxıda dövlət klubu yaradıldı ki, tamaşalar həmin klubda göstərilməyə başladı, müharibə ilə əlaqədar teatr 1941-47- ci illərdə öz tamaşalarını mədəniyyət evi, klub, kinoteatr, xəstəxana, teatr düşərgələri, məktəb binaları, idman zallarında göstərməyə başladı.

Şamaxıda artıq dövlət teatrı tənəzzülə uğradıqdan sonra, 1974-cü ildə burada Ə.Xəqani adına mədəniyyət evində "Palitra" miniatür teatrı təşkil olundu. Teatr ilk qədəmini A.Məmmədovun "Həmyerlilər" əsəri ilə başladı.

**İndi də bu teatra A.M.Şərifzadənin adı verilib. Teatrın fəaliyyəti ilə Şamaxıda bir çox istedadlı aktyorlar nəsli yetişdi. Məmməd Atamalıbəyov, Abbas Mirzə Şərifzadə, Ağasadıq Gəraybəyli kimi dahi aktyorlar buna misal ola bilər. Ümumiyyətlə, Şamaxı teatrı respublikamızın mədəni həyatında çox mühüm rol oynamış və daim örnək olmuşdur.**

● **Laləzar MUSTAFAYEVA,**
***ADMİU-nun dosenti,***
***xalq artisti***

## Ədəbiyyat

1. Ə.Vəliyev. Əqidə, Ruh və Teatr. B.2009.
2. A.Şərifzadə. B.1985.
3. B.Əliyev. Tarixin izləri. B.1975.
4. R.Hüseynov. Min ikinci gecə. B. 1984.
5. Ə.Cəfərzadə. Şamaxı. B. 1994.
6. F.Şuşinski. Azərbaycan xalq musiqiçiləri. B. 1985.
7. Poetik məclislər. B. 1978.
8. K.Landiyev. Şamaxı. B. 1962.
9. X. Məmmədov. Sultan Məcid Qənizadə. B. 1989.
10. Azərbaycan teatrının salnaməsi. B. 1975.
11. Azərbaycan filologiyası məsələləri. B. 1984 №2.
12. A.Əlizadə. Estetik mədəniyyətdə varislik. B. 2005.